

11 DAYANIQLI ŞƏHƏRLƏR VƏ İCMALAR

# DAYANIQLI ŞƏHƏRLƏR: BU NİYƏ VACİBDİR?

## Burada əsas məqsəd nədir?

Şəhərləri inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı yerə çevirmək

## Niyə?

Dünya əhalisinin yarısı - 3,5 milyard insan hazırda şəhərlərdə yaşayır və bu rəqəm getdikcə artacaq. Gələcəkdə insanların böyük bir hissəsinin şəhər əhalisi olacağını nəzərə alsaq, bəşəriyyətin qarşılaşdığı yoxsulluq, iqlim dəyişikliyi, sağlamlıq, təhsil kimi bir sıra böyük məsələlərin həll yolları şəhərlərdə tapılmalıdır.

## Hazırda şəhərlərin qarşılaşdığı ən böyük çətinliklər hansılardır?

Ən böyük narahatlıq bərabərsizlikdir. 833 milyon insan xarabalıqlarda yaşayır və bu say artmaqdadır. Şəhərlərdə enerji istehlakı və çirklənmənin səviyyəsi də narahatlıq yaradan məsələlərdəndir. Şəhərlərin Yerin quru ərazisinin sadəcə 3%-ni tutmağına baxmayaraq, enerji istehlakının 60-80%-i və karbon emissiyasının

**2030-cu ilədək 5 milyard insanın şəhərlərdə yaşayacağı gözlənilir**

75%-i onların payına düşür. Əksər şəhərlər yerləşməsinə və insanların sıx məskunlaşmasına görə təbii fəlakətlər və iqlim dəyişikliyi qarşısında acizdir. Odur ki, insani, sosial və iqtisadi itkilərdən xilas olmaq üçün şəhərlərin davamlılığı çox vacibdir.

## Şəhərdə yaşayıram, amma bu hadisələrin heç birinin mənə təsiri yoxdur. Niyə bu barədə düşünməliyəm?

Bütün bu məsələlər əvvəl-axır hər bir şəhər sakininə təsir edəcək. Bərabərsizlik qarışıqlıq və təhlükəyə gətirib çıxara bilər, çirklənmə hər kəsin sağlamlığını pozur və işçilərin məhsuldarlığına və dolayısı ilə iqtisadiyyata təsir edir, təbii fəlakətlər isə hər kəsin həyatını məhv etmək gücündədir.

## Şəhərlərin təbii surətdə böyüməsinə icazə versək nə baş verər?

Zəif planlaşdırılmış urbanizasiyanın nəticəsi dünyanın bir çox yerlərindəki böyük xarabalıqlarda, qarışıq tıxaclarda, istixana qazı emissiyalarında və genişlənən şəhərətrafı ərazilərdə görünür. Xarabalıqlar ÜDM-ə narkotik maddə kimi təsir edir və insan həyatını qısaldır. Dayanıqlı fəaliyyəti seçməklə, bütün vətəndaşların ləyaqətli yaşadığı şəhərlər qururuq; şəhərin məhsuldarlıq dinamikasını formalaşdırırıq; ətraf mühitə zərər vermədən birgə tərəqqini və sosial sabitliyi təmin edirik.

## Dayanıqlı təcrübələri həyata keçirmək bahalıdırmı?

Xərclər faydalara nisbətdə minimaldır. Məsələn, funksional ictimai nəqliyyat şəbəkəsini yaratmağın xeyli xərci var, amma iqtisadi fəaliyyət, həyat keyfiyyəti, ətraf mühit və şəbəkə şəhərinin ümumi uğuru baxımından üstünlükləri çoxdur.

## Bu məqsədə nail olmağa kömək üçün nə edə bilərəm?

- Şəhərinizin idarəedilməsinə fəal maraq göstərin
- Cəmiyyətinizdə nəyin yararlı, nəyin faydasız olduğuna fikir verin
- Ehtiyacınız olduğuna inandığınız şəhər tipini təbliğ edin
- Binanız, küçəniz və məhəlləniz üçün bir ideya fikirləşin və buna uyğun fəaliyyət qurun. Kifayət qədər iş varmı? Səhiyyə mərkəzlərinə yaxınsınızmı? Uşaqlarınız təhlükəsiz şəkildə məktəbə gedə bilirmi? Ailənizlə birlikdə gecə gəzintiyə çıxa bilirsinizmi? Ən yaxın ictimai nəqliyyat vasitəsi nə qədər uzaqdadır? Havanın keyfiyyəti necədir? İctimai yerlərin vəziyyəti necədir? İcmanızda yaratdığınız şərait nə qədər yaxşı olarsa, həyat standartlarınıza təsiri o qədər yüksək olar.

11-ci məqsəd və digər Dayanıqlı İnkişaf Məqsədləri haqqında ətraflı məlumat üçün aşağıdakı linkə baxın: [http://www.un.org/sustainabledevelopment](http://www.un.org/sustainabledevelopment)

DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ
DÜNYAMIZI DƏYİŞMƏK ÜÇÜN 17 MƏQSƏD